# JURNALİSTİKAMIZIN BÖYÜK ŞAMİLİ



Şəddat CƏFƏROV
*"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü*

Şamil Şahməmmədov - Azərbaycanın görkəmli mətbuat xadimi. 1935-ci ildə Gəncə şəhərində anadan olub. Məlum olan yaşam yolu mənbələrində fəaliyyəti birmənalı olaraq jurnalist kimi göstərilir. Şamil Şahməmmədov şərəfli bir ömür yaşayaraq 26 iyul 2021-ci ildə Bakı şəhərində vəfat etmişdir. O, bir vaxt yüksək əyyarlı (bu *«əyarı»* ifadəsini ona görə işlədirəm ki, indi *«Qızıl qələm»* adını kimə gəldi ünvan eləyirlər) *«Qızıl qələm»* mükafatı laureatı idi.

Yaxşı yadımızdadır, bu mükafat hər yoldan ötənə verilmirdi. Onu Jurnalistlər Birliyi təsis etmişdi. Özü də ixtisasına, peşəsinə uyğun yüksək dərəcədə fəallığı eyni zamanda, peşəkarlığı olan jurnalistlərə verilirdi. İndi burada mənim məqsədim Şamil Şahməmmədovun hansı mükafatı alıb-almamasını xarakterizə etmək deyil. Əsas odur ki, onun yaradıcılığının dəyəri ilə bağlı oxucuda müəyyən təsəvvür yaratmaq mümkün olsun. Hətta heç bir təltifdən söhbət getməsə belə, Şamil Şahməmmədov kimi öz peşə fəaliyyəti sahəsində yaradıcı insanların təsir dairəsini göstərmək bizim borcumuzdur.

Şamil müəllim hələ Bakı Dövlət Universitetinin tələbəsi olarkən mətbuata ayaq açmışdı. Bir az da dəqiq desəm, o, artıq hələ dördüncü kursda oxuyarkən, yəni 1957-ci ildən etibarən Azərbaycan radiosunda maraqlı xəbərləri və oçerkləri ilə çıxış edirdi.

Şamil Şahməmmədovun Azərbaycan radiosunakı fəaliyyəti mənim yadımda xüsusi olaraq qalıb. Çünki o dövrdə mən mətbəə işçisi idim. Və bizim mətbəəmizdə də sovet ideologiyasının təbliğatı məqsədilə daimi fəaliyyət göstərən radio vardı. Mən də o radionun daimi dinləyicisi idim. O illərdən yəni, mənim 17 yaşım olduğu dövrdən üzü bəri Şamil Şahməmmədovun adını yaddaşımda onun jurnalistlik fəaliyyəti ilə bağlı olaraq daşımalı olmuşam.

Əlbəttə, Şamil Şahməmmədov uzun illər Azərbaycan mətbuatının tarixində intellekti, xüsusi yazı tərzi, həyat hadisələrinə özünəxas münasibəti ilə seçilərək yer tutdu.

Hərdən mətbuatda jurnalistikamızın tarixi ilə bağlı yazıları maraqla oxuyuram. Ona görə maraqla oxuyuram ki, mənim şəxsi həyatım da Azərbaycan jurnalistikasının ən azı yarım əsrlik dövrü ilə sıx bağlıdır. İxtisasca əvvəlcə mətbəə işçisi kimi fəaliyyətə başlasam da, sonralar həyatımın nəşriyyat işi ilə bağlı olması məni jurnalistikaya birdəfəlik bağlayıb.

Bəlkə də jurnalistika ilə əlaqələrim ancaq texniki cəhətdən asılı ola bilərdi. Əgər mənim qəlbimdə yaradıcılıq hissi - jurnalistika həvəsi olmasaydı. Çünki dövrümün tanınmış ziyalılarını demək olar ki, jurnalistika sahəsində görürdüm. Famil Mehdini görürdüm, Nurəddin Babayevi görürdüm... və əlbəttə, birinci növbədə mətbuat tarixmizdə misilsiz xidmətləri olan, özünəxas ənənələr yaratmış böyük mətbuat xadimi, yeni jurnalistlər nəslinin formalaşmasında, araya-ərsəyə gəlməsində müstəsna xidmətləri olan Nəsir İmanquliyevi görürüdm. Bu simalar mətbuatımızın təbiətini, mahiyyətini, məzmununu daşıyan insanlar idi.

Azərbaycan mətbuatının tarixi *«Əkinçi»* qəzeti ilə bağlıdır. Zənnimcə, *«Əkinçi»* qəzetinin açdığı yolun dəyəri bu qəzetin xal qruhu ilə bağlı olmasından irəli gəlir. Deməк, lap indiki zamanımızda da hər hansı bir qəzetin, mətbu orqanın dəyəri daha çox onun mənsub olduğu xalqın mənəvi tələbatı ilə ölçülməlidir.

Bəzən elə olur ki, hər hansı bir şəxs haqqında yazanda ən müxtəlif tərəflərdən ideyalar, fikirlər adamı öz cazibəsinə alır. Şamil Şahməmmədov dövlət adamı idi. Onun o vaxtkı «Kommunist» qəzetindəki fəaliyyəti fakt olaraq dövlət adamı olmağına ən yaxşı əsasdır. Onu da deymi ki, Şamil Şahməmmədov sınaqlardan keçmiş kadr idi. Onun *«Azərinform»*un direktoru olmağı da məhz həm yaradıcılıq, həm də mənəvi bütövdük təbiəti ilə bağlı idi. O, *«Azərinform»*da hadisələrə fəal münasibət, obyektiv mövqe göstərmək baxımından demək olar ki, bir ənənə yaratmışdı. *«Azərinform»*un sonrakı rəhbərləri onun yaratdığı ənənələrdən uğurla bəhrələnməkdə idilər. Gözlərimin önünə gətirirəm Şamil Şahməmmədovun otuz il bundan əvvəl dövlət agentliyindəki xidmətini və indi AzərTACın xəbər sistemimizdəki yerini. Görürəm ki, müasir dövlət xəbər agentliyi Şamil Şahməmmədovun ən yaxşı ənənələrinin daşıyıcısıdır. Əlbəttə, burada görkəmli jurnalist, yüksək əyarlı mətbuat xadimi Aslan Aslanovun klassik ənənələrdən bəhrələnməyini də xüsusilə qeyd etmək lazımdır.

Bütün bunları niyə deyirəm, əsas odur ki, insanlar həyatı yaşayırlar,fəaliyyət göstərirlər, köçüb dünyadan gedirlər. Onların göstərdikləri əməli fəaliyyət əgər iz qoymursa, demək, özləri də asanlıqla yaddan çıxır.

Şamil Şahməmmədov ənənələri yaşayan mətbuat xadimi idi.

Azərbaycan mətbuatı tarixində artıq qeyd etdiyimiz kimi, Nəsir İmanquliyev məktəbi də demək olar ki, mənim gözlərimin önündə formalaşıb. Axı mən sıradan bir mətbəə işçisi olaraq qalmırdım. Get-gedə həyatım dəyişirdi. Mətbəə işinin daha dərinliklərinə varmaqla yeni ixtisas dərəcələri almaqda idim. Bu da mənə imkan verirdi ki, mətbuatla sıx əlaqə saxlayım. Xüsusilə, Nəsir İmanquliyevin yaratdığı *«Bakı»* qəzeti 70-ci illərdə özünün ən yüksək kütləvilik mərhələsinə çatmışdı. Hamı deyirdi ki, əgər bu gün axşam *«Bakı»* qəzetinin oxumamısansa, demək, sabah camaat içində sənin sözün olmayacaq. *«Bakı»* qəzeti isə yeni jurnalistlər nəslinin formalaşması məktəbinə çevrilmişdi. Cahangir Məmmədli, Dağbəyi İsmayılov, o cümlədən, Şamil Şahməmmədov əslində, *«Bakı»* qəzetinin yetirmələri idi.

Hələ Ağəddin Mansurzadə haqqında da ayrıca danışmaq olar. Hətta A.Mansurzadə *«Nəsir İmanquliyev məktəbi»* adlı ayrıca bir kitab da yazmışdı...

Şamil Şahməmmədov haqqında məlumat mənbələrinə baxanda maraqlı məqamlarla qarşılaşmalı oluruq. Açıq ensiklopediyada oxuyuram: *«Şamil Şahməmmədov 30 ildən artıq müddətdə milli jurnalistikamızın görkəmli simalarından olan N.İmanquliyevin rəhbərliyi altında zəngin təcrübə məktəbi keçmişdir. O, əvvəl müxbir, şöbə müdiri, sonra məsul katib işləmiş və nəhayət, baş redaktor vəzifəsinədək yüksəlmişdir. Əlbəttə, söhbət «Bakı» qəzetindən gedir».*

Şamil müəllimin mətbuatla bağlı həyatı onun şəxsi həyatı qədər önəmli idi. Ona görə də onun tale yolu mətbuatdan heç vaxt ayrılmayıb. Yenə də açıq ensiklopediyada məlumat almaq olar: *«Kommunist» («Xalq qəzeti»)* qəzetində baş redaktor müavini, AzərTACda baş direktor olması göstərir ki, Şamil Şahməmmədov məbuat müstəvisində xalq və dövlət mənafeyini birləşdirə bilirdi.

Əlbəttə, Şamil Şahməmmədovun həyat fəaliyyəti ilə bağlı məlumatları rəsmi xronikada göstərildiyi kimi çoxaltmaq da olar. Ancaq mənim yaxşı yadımdadır ki, Şamil müəllimin 60-70-ci illərdəki ədəbi jurnalistlik fəaliyyəti demək olar ki, ictimai düşüncənin gündəmi olmuşdu. O



dövrdə bizim Bakı şəhərində maraqlı tikintilər, hətta Azərbaycanın tarixində xüsusi yeri olan obyektlər istifadəyə verilirdi. Həmin obyektlərin, tikintilərin canlı reportajlarını mən Şamil Şahməmmədovun imzası ilə oxumuşdum.

Yaxşı yadımdadır, Bakıda ictimaiyyət üçün xüsusi əhəmiyyəti olan obyektlərin bünövrəsi qoyulanda ayrı-ayrı qəzetlərin reportyorları həmin obyektlərdən yazılar hazırlayırdılar. Metro tikintisi, mərkəzi univermaq, digər obyektlər haqqında yazıları Şamil Şahməmmədovun imzası ilə oxumaq bizə xüsusi zövq verirdi.

Şamil Şahməmmədov nüfuzlu jurnalist idi. Onun yazılarını *«Azərbaycan»*, *«Ulduz»* jurnalları, *«Kommunist»*, *«Ədəbiyyat və incəsənət»* qəzetləri məmnuniyyətlə dərc edirdilər. O, nüfuzlu idman jurnalisti kimi də məşhurlaşmışdı. Mənə elə gəlir ki, *«Neftçi»* kitabı futbol həvəskarlarının hər birinin evində var. O vaxt bu kitabı *«İşıq»* nəşriyyatı buraxmışdı. Bu, Şamil Şahməmmədovün xidməti idi.

Həyat, əbədiyyət, uzun ömür yaşamaq, ölüm... bütün bunlar insanları həmişə düşündürür. Hətta əbədi yaşamaq arzusu ilə çıxış yolu axtaranlar da olur. Deyirlər ki, İsgəndər Zülqərneyn də səlində ona görə dünyanı fəth etmək xülyasına düşüb ki, əbədi yaşamağın sirrini tapsın.

Əfsus ki, bu, ona da müyəssər olmayıb. Amma mənim yaddaşıma lətifəvari bir hekayət də gəlir; deyirlər ki, bir məclisdə molladan soruşurlar: o dünya yaxşıdır, yoxsa bu dünya. Molla da bir az fikirləşib deyir ki, o dünya. Yer-yerdən suallar yağır ki, nə üçün? Molla da cavabını gecikdirmir: Ona görə ki, bu dünyadan gedənlərin gedənlərin heç biri geriyə qayıtmır. Görünür, o dünya daha yaxşıdır, ona görə. Əlbəttə, mən bununla o dünya, ya bu dünya haqqında mübahisə açmaq fikrində deyiləm. Sadəcə, onu demək istəyirəm ki, insanların son olaraq üz tutduqları əbədiyyət məkanı daha üstündür. Çünki onlar bizim dunyamızda olmadıqları vaxtlarda insanlar tərəfindən həqiqi qiymətlərini ala bilirlər. Buna görə də onlara bizdən ayrıldıqları dünyada daha ruhən şad bir məkan diləyirlər.

Şamil Şahməmmədov haqqında yazılanlar, zənnimcə bir araya gətirmək, gələcək mətbuat tariximiz üçün xüsusi əhəmiyyət kəsb edərdi. Bu günün gənc jurnalistləri də bilərdilər ki, hansı bünövrənin üzərində boy atıblar, böyüyüblər? Şamil Şahməmmədov harda işləyibsə, xüsusi hörmət sahibi olub. Hələ «Bakı» qəzetində çalışarkən onun yorulmaz fəaliyyəti, jurnalist fəallığı yazalarındakı canlılığı nəzərə alınıb ona Əməkdar Mədəniyyət İşçisi fəxri adı verilib.

Ulu Öndər Heydər Əliyev Şamil Şahməmmədov kimi dövlət təəssibi çəkənlərin xidmətini heç vaxt nəzərindən kənarda qoymurdu. Görünür, elə bu səbəbdən də Şamil Şahməmmədov da hələ sovet dövründən üzü bəri göstərdiyi xidmətlərinə görə Ulu Öndərin diqqətində olmuşdur. O, dövlət başçısının sərəncamı ilə 2002-ci ildə *«Şöhrət»* ordeninə layiq görülmüşdü.

Şamil Şahməmmədov mənə elə gəlir ki, xoşbəxt ulduz altında doğulmuşdur. Çünki o, *«Şöhrət»* ordeni ilə təltif olunan ilk mətbaut xadimidir. Bir daha yaddaşıa gətirirəm; mehriban, doğma insan, rəsmi münasibətləri dostluq səviyyəsinə qaldıran Şamil Şahməmmədovu.

90-cı illərin əvvəlləri idi. Bir az da dəqiqləşdirsəm, 92-ci il. Əlbəttə, biz bir-birimizi çoxdan tanıyırdıq. Amma bir binada, eyni vaxtda işləmək nüfuzlu Azərbaycan jurnalisti ilə ünsiyyətdə olmaq *«Azərbaycan»* nəşriyyatının rəhbəri kimi mənə xüsusi zövq verirdi. Ayrı-ayrı vaxtlarda mətbəənin ayrı-ayrı sexlərini gəzərkən Şamillə rastlaşırdım. O, metrampajın (səhifələyicinin) yanında dayanaraq səhifələri necə qkrmaq haqqında fikirlərini bildirirdi. İşdən ayrılaraq mənimlə xüsusi doğmalıqla görüşürdü. Bütün bunları mən unutmuram. Hətta elə olurdu ki, ayrı-ayrı qəzetlərlə bağlı mübahisəli məqamları görkəmli mətbuat xadimi kimi onu yanıma dəvət edir və onunla birgə müzakirə edirdim.

Görkəmli mətbuat xadimlərimizi xatırlamaq çox vacibdir. Çünki onların təkcə yaradıcılıqları yox, həm də həyatları, bir az da dəqiqləşdirsək şəxsiyyətləri də dəyərdir. Mənə elə gəlir ki, Şamil Şahməmmədovun adı əbədiləşdirilməyə layiqdir. Onun fəaliyyəti də, yaradıcılıq yolu da buna kifayət qədər əsas verir.

Şamil haqqında yəqin ki, çox danışa bilərəm. Onu yaxından tanıyan hər bir müasiri kimi mənim də qənaətim belədir ki, Şamil unudulmaz sırasında olanlardandır.

Şamil müəllim kifayət qədər uzun ömür yaşadı. 26 iyul 2021-ci ildə vəfat etdi.

*05.04.2022*